# Fikrət Əmirov I Ümumrespublika Musiqi Festivalı başa çatıb

**Gəncə Dövlət Filarmoniyasının 90 illiyinə həsr olunmuş Fikrət Əmirov I Ümumrespublika Musiqi Festivalının təntənəli bağlanış mərasimi Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında baş tutub.**



Tədbirdə mədəniyyət nazirinin müavini, Xalq artisti Murad Hüseynov festivalın əhəmiyyətindən danışıb. O, Gəncə Dövlət Filarmoniyasının 90 illik yubileyi münasibətilə musiqi ictimaiyyətini təbrik edib.

Bağlanış mərasimində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin müşayiəti, Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Xalq artistləri Gülnaz İsmayılova, Şahnaz Haşımova, Sevinc İbrahimova, Əməkdar artistlər Ramil Qasımov, İnarə Babayeva, Aybəniz Haşımova, Ehtiram Hüseynov, Tural Abdullayev, Səidə Tağızadə (fortepiano), Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, solist Rüstəm Cəfərovun ifasında "Azərbaycan elləri", "Sevil" operasından Dilbərin mahnısı, "Gözün aydın" musiqili komediyasından "Baharımsan", "Dağlar qızı reyhan", "Kor ərəbin mahnısı", "Mən səni araram", "Evləri var xana-xana" xalq mahnısı, "Baharımsan", "Ulduz" romansları, Fortepiano və orkestr üçün Ərəb mövzularında konsert (I hissə) səsləndirilib.

Həmçinin orkestrin ifasında "Azərbaycan süitası", "Azərbaycan kapriççiosu" tamaşaçılar tərəfindən gurultulu alqışlarla qarşılanıb.

Festival çərçivəsində Fikrət Əmirovun həyat və yaradıcılığına həsr olunmuş elmi seminar, bəstəkarın əsərlərindən ibarət konsert proqramları, "Sevil" operası, "Min bir gecə" baleti təqdim olunub.

Azərbaycan.- 2025.- 11 mart (№ 53).- S.15.